*Aysel BAĞIROVA* *

# ERMƏNİSTAN - AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN İNKİŞAF DİNAMİKASINDA ESKALASİYA DÖVRÜ

**Açar sözlər:** SSRİ, Azərbaycan, Ermənistan, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, deportasiya, soyqırım

**Keywords:** USSR, Azerbaijan, Armenia, Armenia – Azerbaijan, Nagorno – Karabakh conflict, deportation, genocide

**Ключевые слова:** СССР, Азербайджан, Армения, армяно-азербайджанский, нагорно-карабахский конфликт, депортация, геноцид

Tarix boyu münaqişələr dövlətlərarası münasibətlərin qaçılmaz faktoru olmuş, hətta yeni beynəlxalq münasibətlər sisteminin yaranmasına səbəb olmuşdur. Müxtəlif səbəblərdən yaranan konstruktiv xarakterli münaqişələrlə yanaşı, destruktiv münaqişələr dövlətlərin inkişafına maneə olmaqla əməkdaşlıq proseslərini zəiflətmiş, regional və qlobal təhlükəsizliyi daim təhdid altında saxlamışdır. İmperiyaların süqutu ilə, müstəmləkəçiliyin ləğvi ilə meydana çıxan münaqişələr qanlı və uzun müddətli olması ilə xarakterizə olunmaqla yanaşı münaqişə tərəflərindən əlavə üçüncü tərəflərin maraqlarının olduğu münaqişələrdir. Geosiyasi əhəmiyyətinə görə seçilən regionlar daim böyük dövlətlərin maraq dairələrində olmuşdur. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat qovşaqlarının kəsişdiyi və müxtəlif mədəniyyətlərin beşiyi olan Cənubi Qafqaz dünyanın strateji cəhətdən əhəmiyyətli nöqtəsidir. Bu səbəbdən də tarix boyu münaqişə və müharibələr meydanına çevrilmişdir. Regionda sülh və təhlükəsizliyə təhdid olan münaqişələrdən biri Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Ermənistan XX əsrin sonlarında SSRİ-nin dağılması ərəfəsində yaranan gərgin şəraitdən istifadə edərək ərazilərimizə qarşı işğal siyasətinə başladı və hələ də bu siyasəti davam etdirməkdədir. XX əsrin 80-ci illərində Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar siyasətinə SSRİ rəhbərliyinin etinasız və loyal münasibətinə qarşı çıxan Sovet rəhbərliyindəki azərbaycanlıların hakimiyyətdən uzaqlaşdırılması Ermənistanın işğalçı siyasətinə daha da rəvac verdi.

* **Aysel Bağırova** - Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müəllimi.

Azərbaycan SSR-də bütün istiqamətlərdə inkişafın yaranmasının səbəbkarı olan dahi şəxsiyyət Heydər Əliyev 1987-ci ilin oktyabrın 21-də siyasi bürodan uzaqlaşdırıldı. Səbəb isə Heydər Əliyevin ermənilərin Dağlıq Qarabağla bağlı çirkin niyyətlərinin həyata keçirilməsində böyük maneə olması idi. Bu vaxtdan Azərbaycanın başı üstünü yenidən qara buludlar aldı. Ermənilər gələcək işğalçılıq siyasətlərinə güclü hazırlaşırdılar. Z.Balayanın "Ocaq", "Yol" və başqa bu qəbildən olan millətçilik yazıları Qarabağ məsələsinin alovlanmasında mühüm rol oynamışdı. Z.Balayan "Ocaq" kitabında yazırdı: "Məsafələrimiz necə də qısadır, yerimiz necə də darısqaldır. Dünyanın heç yerində bizim vəziyyətdə olan yoxdur. Cəmi iki min kvadrat kilometrlik münbit torpağımız var, vur-tut bircə ovuc" (1, s. 278). Belə vasitələrlə millətlərarası münasibətlərin qızışdırılması Ermənistanın əsassız olaraq və beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı ərazi iddialarına rəvac verirdi. Eyni zamanda, azərbaycanlıların doğma yurd-yuvalarından deportasiyasının yeni mərhələsi baş verirdi. Ermənistan SSR-də qalan az sayda azərbaycanlılar isə 1987-91-ci illərdə növbəti deportasiyada doğma yurdlarından zorla çıxarılaraq Azərbaycan SSR-nə köçürüldülər. Ermənistan SSR-nin Qafan və Mehri rayonlarından azərbaycanlıların deportasiyasına başlanıldı. Ermənistan SSR-nin 1988-ci ilin fevralın 23-də Qafan rayonunda əhalisi azərbaycanlı olan yaşayış məntəqələrinə kütləvi basqınlar həyata keçirməsi, fevralın 24-də Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Əsgəran rayonunda 2 azərbaycanlı gəncin ermənilər tərəfindən öldürülməsi və Ağdam və Əsgəran rayonlarının sakinləri arasında Xankəndi-Ağdam yolunda olan qarşıdurmada 19 nəfərin ölməsi hadisələri üzrə heç bir tədbirlərin görülməməsi ermənilər tərəfindən azərbaycanlılara qarşı gələcək qırğınların siqnalını verirdi. 1988-ci ilin martın 2-də Ermənistanda yaşayan azərbaycanlıların yeni kütləvi deportasiyasına başlanıldı. Zorakılıqla qovulmuş insanların əksəriyyəti Zəngilanda və ona qonşu rayonlarda yerləşdilər (2, s. 46-49).

1988-ci ilin martın 23-də A.A.Qromıkonun sədrliyi ilə keçirilən SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də baş verən hadisələr haqqında müttəfiq respublikaların müraciətləri ilə əlaqədar tədbirlər haqqında məsələ müzakirə olunaraq müvafiq qərar qəbul edildi. Qeyd edildi ki Dağlıq Qarabağda hadisələrlə əlaqədar Azərbaycan SSR-də və Ermənistan SSR-də yaranmış vəziyyət bu respublikaların xalqlarına və ümumən vahid çoxmillətli ittifaq dövləti kimi SSRİ-nin xalqları arasında dostluğun daha da möhkəmləndirilməsinə zərər vurur. Qərarda qeyd edilirdi ki, baş verən hər cür ekstremist və millətçilik fəaliyyətlərinin qarşısının alınması, ayrı-ayrı şəxslər və qruplar tərəfindən həyata keçirilən cinayət hadisələri qətiyyətlə pislənərək belə münasibətlərin səbəbləri dərindən və ətraflı araşdırılmalıdır (3).





Dağlıq Qarabağı Azərbaycan SSR tərkibindən çıxartmağa şərait yaradan növbəti addım 1989-cu ilin 12 yanvar tarixli SSRİ Ali Soveti Rəyasət Heyətinin Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtar vilayət satusunu saxlamaqla DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında qərarı oldu (4). A.Volski başda olmaqla yaradılan Xüsusi İdarə Komitəsinin məqsədi regionda vəziyyəti sabitləşdirmək olsa da, fəaliyyəti isə onun əksini göstərirdi. Azərbaycanlıların doğma yurdlarından qovulması siyasəti bu dövrdə də davam etdirildi. Vilayətin idarə və müəssisələrinin demək olar ki, hamısının Azərbaycanın tabeliyindən İttifaqın tabeliyinə keçirilməsi, o dövrdə SSRİ Plan Komitəsinin Hesabat sənədlərində Dağlıq Qarabağın əslində on altıncı müttəfiq respublika kimi ələhiddə göstərilməsi, Vilayət İcraiyyə Komitəsinin binasının üzərində dalğalanan Azərbaycan bayrağının Ermənistan bayrağı ilə əvəzlənməsi daxili qanunvericiliyə zidd olmaqla regionda vəziyyəti daha da gərginləşdirdi və gələcək qanlı münaqişəyə yol açdı (2, s. 58-59). Bu qərarın Azərbaycan üçün ağır nəticələri oldu. 1989-cu ilin avqustun 16-da Xankəndidə keçirilən "DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin" qurultayında DQMV müstəqil ittifaq ərazisi elan edilərək hakimiyyət qeyri-qanuni qurum olan Milli Şuraya verildi. Bununla da qurultay DQMV xüsusi idarə formasını ləğv etdi və onu Azərbaycan SSR-nin tərkibi kimi tanımaqdan imtina etdi. Sentyabrın 15-də isə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə DQMV-dəki Xüsusi İdarə Komitəsi ləğv olundu. Ermənilər tərəfindən azərbaycanlılara qarşı hayata keçirilən qırğınlar 1989-cu ildə də davam etməkdə idi (2, s. 61).

Gərgin şəraitdən istifadə edən Ermənistan Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında konstitusiyaya zidd qərar qəbul etdi. Ermənistan Ali Soveti 1989-cu ilin dekabrın 1-də Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında birtərəfli qərar qəbul etdi (5, s. 58).

SSRİ rəhbərliyi 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıda günahsız insanların üzərinə tankları yeridərək qanlı 20 yanvar hadisələrini törətdi. Bu hadisə Azərbaycan xalqının əzmini qırmadı, əksinə müstəqillik amalında daha da birləşdirdi. Bu birləşmənin başında isə xalqın oğlu Heydər Əliyev dayanırdı. Heydər Əliyev qanlı 20 yanvar hadisələrinin səhərisi günü Moskvadakı Azərbaycan münayəndəliyinə gələrək Sovet rəhbərliyini cinayət əməllərinə görə ifşa etdi.

Bu dövrdə Dağlıq Qarabağ mövzusu xarici erməni qəzet və jurnallarında geniş şəkildə qeyd edilirdi. Parisdə erməni radiostansiyası "Ayb", "Svoboda" radiostansiyasının erməni redaksiyası və digər təşkilatlar böyük iş apardılar (1, s. 307). Dağlıq Qarabağ probleminin qızışdırılmasında erməni kilsəsinin də təsiri böyük olmuşdu. Erməni kilsəsinin təsirindən istifadə edən katalikos I Vazgen

1990-cı ilin iyulun 30-da respublika mətbuatında dərc olunmuş müsahibəsində demişdi: 1988-ci ilin fevralında başlanmış "Qarabağ hərəkatı"nda "erməni apostol kilsəsi müəyyən rol oynamış və oynayır...". Dinlə dövləti möhkəm ittifaqda birləşdirən əsas halqalardan biri "Artsax uğrunda" mübarizədir (6, s. 3).

1991-ci ilin avqustun 30-da Azərbaycan SSR Ali Soveti dövlət müstəqilliyi haqqında bəyanat, oktyabrın 18-də isə dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etdi. SSRİ-nin dağılması ərəfəsində yaranmış gərgin şərait, hakimiyyət boşluğu ermənilərin çirkin niyyətlərini həyata keçirməyə şərait yaratdı. Ermənilər Azərbaycanın və Ermənistanın müstəqilliklərini elan etməsi ilə Dağlıq Qarabağın Azərbaycan ərazisindən çıxaraq SSRİ ərazisinə çevrildiyini və "müttəfiq respublika" statusunu qazandığını iddia edərək Dağlıq Qarabağ "əhalisi" arasında "Siz, Dağlıq Qarabağın SSRİ tərkibində respublika olmasına razısız?" sualını referenduma çıxarmaq niyyətində idilər. Lakin İttifaqın dağılmasının müşahidə olunması ilə 1991-ci ilin dekabrın 10-da keçirilən "referendum"a çıxarılan sual dəyişiklik edilərək "Siz, elan edilmiş Dağlıq Qarabağ respublikasının digər dövlətlər və birliklərlə əməkdaşlıq formalarını müstəqil müəyyənləşdirən müstəqil dövlət olmasına razısız" ilə əvəzləndi. "Referendum"un "nəticələrinə" əsasən "Dağlıq Qarabağ Respublikası"nın Ali Soveti 1992-ci ilin yanvarın 6-da "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyi haqqında Bəyannamə qəbul etdi (7, s. 58). Ermənilər qondarma Dağlıq Qarabağ Respublikası adlanan siyasi oyuncaq qurumu yaratdılar. Azərbaycan Respublikası, Konstitusiyasını və "Dövlət müstəqilliyi haqqında" aktını əsas tutaraq noyabrın 26-da Dağlıq Qarabağ Muxtar vilayətini milli ərazi qurumu kimi ləğv etdi. Azərbaycanın ərazi bütövlüyünə zidd "Müstəqillik referendum"unun keçirilməsi, ondan 11 gün sonra isə SSRİ-nin dağılması ilə Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini genişləndirməyə başladı. Azərbaycanın Dağlıq Qarabağa bitişik rayonlarının Ermənistan tərəfindən işğalına başlanılması münaqişənin inkişaf dinamikasında açıq silahlı toqquşma ilə müşayiət olunan müharibə mərhələsini başlatdı.

Bu illərdə ermənilər tərəfindən Moskva-Bakı sərnişin qatarlarında, Tbilisi-Bakı, Tbilisi-Ağdam, Ağdam-Şuşa, Ağdam-Xocalı istiqaməti üzrə avtomobillərdə törədilən terror aktları nəticəsində yüzlərlə dinc azərbaycanlı öldürüldü (8, s. 21). 1988-1991-ci illər ərzində Dağlıq Qarabağda ermənilər tərəfindən həyata keçirilmiş 2559 toqquşma, 315 silahlı basqın, 1388 atəşə tutulma halları nəticəsində 514 nəfər qətlə yetirilmiş və 1318 nəfər isə yaralanmışdı. 119 obyekt və 1134 azərbaycanlı evi ermənilər tərəfindən dağıdılmışdı (2, s. 88-89).

Ermənistanın işğalçılıq siyasəti 1991-1992-ci illərdə daha geniş məcraya daxil oldu. Bu dövrdə Azərbaycanda mövcud olan siyasi qeyri-sabitlik, sosial-iqtisadi problemlər və daxili çəkişmələr səbəbindən Ermənistanın işğalçılıq siyasətinin qarşısını almaq mümkün olmadı. Ermənistan ordusu 1992-ci ilin əvvəllərindən başlayaraq yuxarı Qarabağda azərbaycanlıların yaşadıqları sonuncu yaşayış məntəqələrini də işğal etdi. Ermənistan ordusu fevral ayının 12-də Şuşanın Malıbəyli və Quşçular kəndlərini işğal etdi. Fevralın 13-dən 18-dək Xocavənd rayonunun Qaradağlı kəndinə silahlı hücum nəticəsində ermənilər tərəfindən 118 nəfər qadın, uşaq, qoca əsir götürüldü, 33 nəfər güllələndi və yaralılar və öldürülənlər bir yerdə təsərrüfat quyusuna tökülərək yandırıldılar (8, s. 23).





1992-ci ilin fevralın 26-da erməni silahlı qüvvələri 366-cı sovet alayının köməyi ilə Xocalı soyqırımını həyata keçirdilər. Xocalı faciəsindən bir neçə ay əvvəl bütün bunlar planlaşdırılmışdı. 1991-ci ilin oktyabrından etibarən şəhərə gedən avtomobil yolu bağlanmışdı. 1992-ci ilin yanvarın 2-də şəhərə elektrik enerjisi verilməsi dayandırıldı və bununla da şəhərlə əlaqə tamamilə kəsildi. Şəhər blokadaya alındı, yalnız hava məkanı ilə əlaqə saxlamaq mümkün idi. Bir müddət sonra vertolyot əlaqəsi də kəsildi. Yanvarın 28-də Ağdamdan Şuşaya uçan Mİ-8 vertolyotu şəhərə çatmamış, Xəlfəli kəndinin üzərində Xankəndi tərəfindən raketlə partladıldı və nəticədə 3 nəfər heyət üzvü və 41 sərnişin həlak oldu (2, s. 92). 25-dən 26-na keçən gecə Xocalıda həyatını itirən 613 nəfərdən 63-ü azyaşlı uşaq, 70-i qoca, 106-sı qadın olmaqla soydaşlarımız erməni separatizminin, şovinizminin qurbanı olmuşdu. Facıə nəticəsində 487 nəfər şikəst olmuş, 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüşdü (9, s. 133).

T.de Vall "Qara bağ" kitabında S.Sarkisyandan aldığı müsahibədə yazırdı: "Xocalıdan əvvəl azərbaycanlılar fikirləşirdilər ki, biz onlarla zarafat edirik. Onlar zənn edirdi ki, ermənilər əlini dinc əhaliyə qaldıra bilməyən bir xalqdır. Biz bu stereotipin öhdəsindən gələ bildik" (10, s. 235; 11, s. 135).

Azərbaycanlılar üçün soyqırım ilə başlayan XX əsr Xocalı soyqırımı ilə də başa çatdı. İnsanlığa sığmayan, ağıla gəlməyən üsullarla vəhşicəsinə həyata keçirilən Xocalı soyqırımı XX əsrin ən dəhşətli soyqırımıdır. Xocalı soyqırımının şahidlərindən birinin sözləri ilə: "qadınları təpiklə, avtomatın qundağı ilə elə döyürdülər ki, hıçqırtıdan, iniltidən qulaq tutulurdu. Bizi bu vəziyyətə salan erməni bandasının başçısı Sanvel idi. Bizə deyirdi ki, mən sizə elə bir işgəncə verməliyəm ki, nə qədər yaşasanız bu işgəncəni unutmayasınız" (12, s. 79).

BMT Baş Assambleyasının 1948-ci ilin dekabrın 9-da 260 (III) saylı qətnaməsi ilə soyqırım sülh və insanlıq əleyhinə yönələn əməl və ən ağır cinayətdir. 1961-ci ildə "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması" haqqında konvensiya qüvvəyə minməklə soyqırım cinayətinin hüquqi əsası təsbit olunmuşdur (13, s. 75).

Ermənistan tərəfinin işğal prosesində azərbaycanlılara qarşı etnik təmizləmə, soyqırım, ağılasığmaz zorakılıqlar, vəhşiliklər törətməsi beynəlxalq humanitar

hüququn əsas sənədləri sayılan “müharibə qurbanlarının müdafiəsi haqqında” 12 avqust 1949-cu il Cenevrə Konvensiyalarını və onlar əlavə edilmiş 1977-ci il protokollarına (14, s. 121-122) məhəl qoymadığını göstərir.

Bu qanlı hadisədən sonra region dövlətləri münaqişədən daha çox narahatlıq keçirməyə başladılar. 1992-ci ilin mayın 6-8-də İranın təşəbbüsü ilə Tehranda Azərbaycan və Ermənistan rəhbərləri arasında üçtərəfli görüşdə danışıqlar aparıldığı vaxt Şuşa şəhəri işğal edildi (15, s. 30; 8, s. 25, 25). Bu hadisə onu göstərdi ki, Ermənistan beynəlxalq ictimaiyyətdən öz mənfur niyyətlərini gizlədərək əvvəlcədən hazırlanmış plan əsasında Şuşanın işğalını həyata keçirtdi. 289 kvadrat km ərazisi, 24000 əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Azərbaycanın maddi və mənəvi sərvətləri ilə zəngin, əlverişli coğrafi mövqedə yerləşən Şuşamız Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. İşğal nəticəsində 195 nəfər şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər isə itkin düşdü (8, s. 25). Şuşa şəhərinin işğalından sonra digər ərazilərimizin işğalı üçün sanki yol açıldı. Laçın atəşə tutuldu. Mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağdan kənarda yerləşən, strateji əhəmiyyətli Laçın işğal edildi. Laçının itirilməsi ilə 125 kənd, 64 min hektar yaylaq sahəsi, 34 min kvadrat kilometr zümrüd meşə zolağı ilə yanaşı yeraltı və yerüstü sərvətlər itirildi. Döyüşlərdə 262 nəfər laçınlı şəhid oldu, 67 nəfər itkin düşdü və yüzlərlə insanlar şikəst oldu (1, s. 393). Laçın dəhliz rolunu oynadığı üçün işğaldan sonra ermənilər Yuxarı Qarabağa müntəzəm olaraq hərbi texnika, sursat və eləcə də Ermənistanda və xarici hərbi bazalarda təlim keçmiş qoşun hissələri daşıdılar.

Ulu Öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin Sədri vəzifəsində fəaliyyət göstərərkən qonşu dövlətlərlə əlaqələr yaratmış və Naxçıvanın düşmən işğalı altına düşməsinin qarşısını almışdı. Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin Sədri vəzifəsini icra edərkən Heydər Əliyev “Reyter” informasiya agentliyinin müxbirinə verdiyi müsahibəsində ölkədəki vəziyyəti xarakterizə edərkən söyləmişdi: “İndi Bakıda rəhbərlik yoxdur. Orada əsl xaos hökm sürür” (16, s. 196).

1992-ci ilin mayın əvvəlində Navçıvan MR-da Azərbaycanla Ermənistanın sərhədində gərginlik yenidən artdı. Həmin zaman mayın 8-də “Milliyyət” qəzetində Naxçıvandakı hərbi vəziyyətlə bağlı məlumat dərc edilmişdi. Türkiyə Cumhuriyyətinin Baş Naziri Süleyman Dəmirəl ABŞ prezidenti C.Buşla telefon danışığında Ermənistanın Naxçıvana hücumlarını davam etdirdiyi təqdirdə Türkiyənin kənar müşahidəçi kimi qala bilməyəcəyini bildirdi. Sədərəkdə hərbi vəziyyət elan olundu və qanlı döyüşlər 40 gün davam etdi. Türkiyə rəhbərliyinin və Heydər Əliyevin səyi ilə ermənilərin işğalçılıq siyasəti bütün dünyaya çatdırıldı. Sabitliyin yaradılmasında Heydər Əliyevin şəxsi nüfuzunun mühüm təsiri oldu.





Mayın 24-də Ermənistanın təklifi ilə danışıqlar başlandı və sabitlik təmin edildi (17, s. 175-178).

Erməni hərbiçiləri 1993-cü ilin fevralın 5-də hücuma keçərək fevralın axırında Ağdərə rayonun 17-i kəndini işğal etdilər və Sərsəng su hövzəsi üzərində nəzarəti ələ keçirdilər. 1993-cü ilin martın 8-də erməni hərbi qüvvələri Ağdərəyə yaxınlaşdılar. 1993-cü ilin martın 27-dən Kəlbəcər havadan və qurudan arasıkəsilməz atəşə tutuldu və martın 27-də bir neçə kənd işğal edildi, martın 30-31-də isə mərkəz atəşə məruz qaldı. Kəlbəcərin digər 12 kəndi də martın 31-də işğal edildi. Bu hadisələrdən sonra rayonun vəziyyəti daha da ağırlaşdı və aprelin 2-də Kəlbəcər işğal edildi (1, s. 394). Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində 1993-cü ilin iyul 23-də Ağdam rayonu, avqustun 23-də isə Cəbrayıl və Füzuli rayonları işğal edildi. 1994-cü ilin yanvarında Füzuli rayonunun Horadiz qəsəbəsi və 22 kəndi işğaldan azad edildi (2, s.132, s. 137). Füzuli rayonunun işğal olunmuş 76 kəndindən 54-ü hələ də işğal altındadır. BMT Təhlükəsizlik Şurasının münaqişənin dayandırılması haqqında 822, 853, 874 saylı qətnamələrinə məhəl qoymayan Ermənistan təcavüzkar siyasətini davam etdirərək 1993-cü ilin avqustun 31-də Qubadlı rayonunu, oktyabrın 29-da isə Zəngilan rayonunu işğal etdi (2, s. 139-140). Zəngilan rayonunun işğalı ilə əlaqədar BMT Təhlükəsizlik Şurası 1993-cü ilin noyabrın 12-də Zəngilan rayonunun işğalı ilə əlaqədar əvvəlki qətnamələrin məzmununu bir daha təsdiqləyən 884 saylı qətnamə qəbul etdi (2, s. 142).

4.4 min kvadrat kilometr ərazisi olan Dağlıq Qarabağın işğalından sonra ondan təxminən 4 dəfə böyük olan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. İşğal nəticəsində 900-ə yaxın yaşayış məntəqəsi, 22 muzey və 4 rəsm qalereyası, tarixi əhəmiyyətli 9 saray, nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı, 44 məbəd və 9 məscid dağıdılmış, 927 kitabxanada 4.6 milyon tarixi kitab və tarixi əlyazmalar məhv edilmişdi (8, s. 27). İşğal altında olan torpaqlarımızda 67 məscid, 144 məbəd, 192 ziyarətgah olmaqla təxminən 403 tarixi-dini abidələr mövcuddur (18, s. 5). Ekologiya və Təbii sərvətlər nazirliyinin məlumatına əsasən işğal olunmuş torpaqlarımız faydalı qazıntı yataqları ilə zəngindir. 155 növ müxtəlif faydalı qazıntı yataqları, həmçinin 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, gəc, 14 əlvan və bəzək daşları olan əqiq, yəşəm, oniks, cad, 11 şirin yeraltı su və 10 mineral su yataqları yerləşir (19, s. 1).

Dağlıq Qarabağ Muxtar Vilayəti və ona bitişik 7 rayon – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı Ermənistan tərəfindən işğal edilmiş-

dir. Hazırda Naxçıvan Muxtar Respublikasının işğal olunmuş 2 kəndindən 1-i, Qazax rayonunun işğal olunmuş 12 kəndindən 7-si, Tərtər rayonunun 13 kəndi, Ağdam rayonunun işğal olunmuş 82-i kəndindən 80-i hələ də işğal altındadır (20, s. 11).

1993-cü ildə Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə yenidən qayıtdıqdan sonra Azərbaycan həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Xocalı soyqırımına dövlət səviyyəsində qiymət verildi və dünya miqyasında ermənilərin etnik təmizləmə, soyqırım siyasəti ifşa edilməyə başlanıldı. Ulu öndər Heydər Əliyev söyləyirdi: "Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Onu indiki nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik. Güman edirəm ki hər bir vətəndaş bu vəzifənin yerinə yetirilməsində öz yerini tapacaqdır" (21, s. 153).

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı təcavüzü tarixindən bəzi məqamlar (Monoqrafiya). Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2011, 449 s.
2. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika 1987-2011. Bakı, Ensiklopedik nəşr, 2012, 912 s.
3. "Kommunist" qəz., 24 mart 1988.
4. "Kommunist" qəz., 15 yanvar 1989.
5. Помпеев Ю. Кровавый омут Карабаха. Баку, Азербайджан, 1992, 208 с.
6. Quliyev C.B. Dağlıq Qarabağ: Millətin tale məsələsi. "Kommunist" qəz., 20 mart 1991, s.3.
7. Ruintən K.F. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı: «Adiloğlu» nəşriyyatı, 2008. - 260 s
8. Həsənov Ə.M. Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri. Bakı: Zərdabi LTD, 2017, 400 s.
9. Hacıyeva Ş.Ş. Azərbaycan və Türkiyənin ortaq problemi "erməni məsələsi": "Xocalı soyqırımı" və uydurma "erməni soyqırımı" / Akademik Ziya Bünyadovun 90 illiyinə həsr olunmuş konfransın materialları. Bakı: Tarix və onun problemləri, № 2, 2012, s. 132-138.
10. Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. М.: Аквариус, 2014, 280 с.
11. Томас де Ваал. Черный сад. Между миром и войной. М., 2005, 135 с.
12. Paşayeva Q, Məmmədova H. Xocalı soyqırımı: Şahidlərin dilindən. Bakı, «Elm və təhsil», 2011, 288 s.







13. Əhmədov E. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasətinin mərhələləri // Geo Strategiya, 2011, №2 (02), s. 70-76
14. Мустафаева А. Защита гражданского населения в период вооруженных конфликтов в международном гуманитарном праве и законодательстве Азербайджанской Республики. Институт по правам человека Национальной Академии Наук. Азербайджана. Баку: Nurlar, 2008, 166 с.
15. Səfərov P.Ş. 90-cı illərdə Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasəti. Metodik vəsait. Bakı: N.Tusi adına ADPU-nun mətbəəsi, 1999, 117 s.
16. Seyidova S. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində ilkin cəhdlər (1992-1994-cü illər) // Tarix və onun problemləri. Müasir dövr, 2013, №3, s.194-200
17. Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan, "Əcəmi" nəşriyyat poliqrafiya birliyi, 2012, 192 s.
18. Məmmədov N. İşğal altındakı tarixi-dini abidələrimiz. Bakı: Nurlar, 2015, 96 s.
19. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Ekoloji terror.
20. Süleymanov E., Süleymanov V. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı: CBS, 2012, 182 s.
21. Vəlizadə K. Müasir dövr və şəxsiyyətin siyasi fəallığı // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. İctimai elmlər seriyası, 2017, № 6 (87), s.153-157


## THE PERIOD OF ESCALATION IN THE DYNAMICS OF THE ARMENIA – AZERBAIJAN, NAGORNO-KARABAKH CONFLICT

### SUMMARY


The rapid increase in the number of conflicts and wars around the world due to various reasons makes it necessary to conduct research in this topic. Unresolved conflicts in the South Caucasus are the greatest threat to the regional security. One of the unresolved conflicts facing various obstacles in the settlement process is the Armenia – Azerbaijan, Nagorno-Karabakh conflict. The study of factors hindering the settlement of the Armenia - Azerbaijan, Nagorno-Karabakh conflict is an urgent issue from the point of view of ensuring regional security. Therefore, it is necessary to study the dynamics of the conflict. The period of escalation of the Armenia – Azerbaijan, Nagorno-Karabakh conflict, which went through several stages in dynamics, had a bloody character. Armenia`s military aggression resulted in the occupation by the Armenian armed forces of 20 percent of the territory of the Republic of Azerbaijan – Nagorno-Karabakh region and seven adjacent districts. In the process of researching the topic, with referring to scientific literature and newspaper materials, methods such as comparison, study of documents, content analysis and event analysis were used.

# ПЕРИОД ЭСКАЛАЦИИ В ДИНАМИКЕ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО, НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА

## РЕЗЮМЕ

Быстрый рост числа конфликтов и войн по всему миру в силу различных причин делает необходимым проведение исследований в этой области. Неразрешенные конфликты на Южном Кавказе являются самой большой угрозой региональной безопасности. Армяно-азербайджанский, нагорно-карабахский конфликт является одним из нерешенных конфликтов, сталкивающийся с различными препятствиями в процессе урегулирования. Изучение факторов, препятствующих урегулированию армяно-азербайджанского, нагорно-карабахского конфликта, является актуальной проблемой с точки зрения обеспечения региональной безопасности. Поэтому необходимо исследовать динамику развития этого конфликта. Нагорно-Карабахский конфликт, отличающийся кровопролитным периодом эскалации, в своей динамике прошел несколько периодов развития. 20% территории Азербайджанской Республики – Нагорно-Карабахская область и семь прилегающих районов, были оккупированы в результате военной агрессии со стороны армянских вооруженных сил. В процессе исследовательской работы по этой теме, ссылаясь на научную литературу, газетные материалы, были использованы такие методы как сравнение, изучение документов, контент-анализ и ивент-анализ.